**Vilyam H. Makreyven**

# YATAĞINI DÜZƏLT:

## Həyatınızı... ola bilsin ki, dünyanı da dəyişə biləcək kiçik şeylər

Tərcüməçi:
Aqil Hacıyev

qanun nəşriyyatı

**William H. Mcraven**

# MAKE YOUR BED:
## Little things that can change your life... And maybe the world

Hər günü uğurla yerinə yetirilmiş tapşırıqla başlayın. Həyatınız boyu sizə kömək edəcək birini tapın. İnsanlara hörmətlə yanaşın. Bilin ki, həyat ədalətli deyil və dəfələrlə uğursuzluğa düçar ola bilərsiniz, lakin yeri gəldiyində riskə getməyi bacarsanız, ən çətin anlarda belə irəliyə doğru can atsanız, çətinliklərə sinə gərsəniz, yıxıldığınız zaman uzanıb qalmaq əvəzinə yenidən ayağa qalxsanız və heç zaman, heç bir halda təslim olmasanız... bütün bunları etməyə özünüzdə güc tapsanız, o zaman sizdən sonra gələcək nəsillər daha yaxşı dünyada yaşayacaq. Və bu gün burada başlayan, mütləq dünyanı yaxşılığa doğru dəyişəcək.

**William H. Mcraven**
**MAKE YOUR BED: LITTLE THINGS THAT CAN CHANGE YOUR LIFE... AND MAYBE THE WORLD**

**Vilyam H. Makreyven**
**YATAĞINI DÜZƏLT: HƏYATINIZI... OLA BİLSİN Kİ, DÜNYANI DA DƏYİŞƏ BİLƏCƏK KİÇİK ŞEYLƏR**
Bakı, Qanun Nəşriyyatı, 2024, 144 səh.

Janr: özünüinkişaf, motivasiya
Yaş qrupu: 13+
Ölçü: 107x165 mm
Cild: qalın
Çapa imzalandı: 23.08.2024

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Tərcüməçi: | Aqil Hacıyev |
| Redaktor: | Çimnaz Vəliyeva |
| Texniki redaktor: | Aygül Yelmarlı |
| Korrektor: | Həyat Hacıyeva |
| Mətn dizaynı: | Rahilə Şamilqızı |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
Bakı, Azərbaycan, AZ1102, Tbilisi pr., 76
Тел.: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-36-686-0

© Qanun Nəşriyyatı, 2019; 2024
© William H. Mcraven, 2017

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları Qanun Nəşriyyatına məxsusdur.
Kitabın təkrar və hissə-hissə nəşri “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikasının Qanununa ziddir.

*Həyatınızı... və ola bilsin ki,*
*dünyanı dəyişə biləcək kiçik şeylər*

# ÖN SÖZ

2014-cü il mayın 17-də Texas Universitetinin diplomların təqdimat mərsasimində məzunlar qarşısında çıxış etmək şərəfinə layiq görüldüm. Bu universiteti bitirməyimə baxmayaraq, inanmırdım ki, karyerası müharibələrdə qurulmuş zabiti universitet məzunları rəğbətlə qarşılasın. Lakin onlar nitqimi böyük maraqla dinləyib məni təəccübləndirdilər. Dəniz piyadaları təlimlərində çətinliklərin öhdəsindən gələrkən öyrəndiyim və nitqimin əsasını təşkil edən "on dərs" hamının diqqətini cəlb etdi. Bunlar sadə dərslərdir, amma kimliyindən asılı olmayaraq, həyatda hamının əlindən tutur.

Son üç ildə küçədə məni maraqlı insanlar saxlayıb: mənə necə “yelkəni suya salmadıqları”, “kiçik əngəllərə necə məhəl qoymadıqları” və ya “hər səhər yataqlarını yığışdırmağın” çətin anlarda onlara necə kömək etdiyinə dair həyat hekayələrini danışıblar. Onların hamısı, “on dərsin” mənim həyatımı necə dəyişdirdiyi, karyeram boyunca kimlərdən ruhlandığım haqqında daha çox şey bilmək istəyirdilər. Bu kiçik kitabın məqsədi məhz budur. Hər fəsil bu dərslərə bir müqəddimə verir və öz intizamı, iradəsi, cəsarəti, dürüstlüyü və səmimiyyəti ilə məni ruhlandırmış insanlarla bağlı qısa hekayələr danışır. Ümid edirəm, kitab xoşunuza gələcək və sizin üçün faydalı olacaq!

# I HİSSƏ

# Gününüzə tapşırığı bitirməklə başlayın

***Dünyanı dəyişmək istəyirsinizsə, çarpayınızı yığışdırmaqdan başlayın.***

Dəniz piyadalarının kazarmaları Kaliforniyada, Koronado sahillərində, Sakit okeandan təxminən yüz metr aralıda yerləşən üçmərtəbəli binalardan ibarətdir. Kazarmalarda kondisioner yoxdur və gecələr açıq pəncərədən dalğaların səsini eşitmək olur. Otaqlar Sparta qaydasında təchiz edilib. Zabitlər üçün nəzərdə tutulmuş və digər üç yoldaşımla bölüşdüyümüz otaqda cəmi dörd çarpayı və uniformalar üçün asılqan var idi. Kazarmada qaldığım dövrdə səhər tezdən sıçrayıb qalxır və dərhal çarpayımı yığışdırırdım. Bu, günün ilk tapşırığı idi: hərbi formaların

yoxlanılması, uzaq məsafələrə üzmək, qaçmaq, maneələri aşmaq və təlimçilərin daimi həqarətləri ilə dolu bir gün bu cür başlayırdı.

“Farağat!” – təlimçinin otağa daxil olduğunu görən kimi qrup nümayəndəsi, kiçik leytenant Daniel Stüard əmr verirdi. Mən çarpayımın ayaq tərəfində dayanırdım, təlimçi yaxınlaşanda dabanlarımı cütləşdirir, özümü tarım dartaraq “farağat” vəziyyətini alırdım. Təlimçi sərt və ifadəsiz üzlə əvvəlcə səkkizguşəli yaşıl kepkamın yaxşı kraxmallandığını, şax durub-durmadığını yoxlayırdı. Başdan-ayağa məni süzərək geyimimin hər bir qarışının nizamnaməyə uyğun olmasına nəzarət edirdi: köynəyimin və şalvarın ütülü xətləri səliqəliydimi? Kəmərin toqqası güzgü kimi parıldayırdımı? Uzunboğaz çəkmələrim təlimçinin barmaqlarını əks etdirəcək qədər yaxşı pardaqlanıbmı? Mənim dəniz piyadalarının yüksək tələblərinə cavab verdiyimə əmin olandan sonra yatağımı yoxlamağa keçirdi.